DAAD Deutscher Akademischer Austauschdienst
German Academic Exchange Service

# ALMANİYADA TƏHSİL

## Valideynlər üçün

vacib məlumatlar



# My GUIDE | The gateway to your German university

# Studying in Germany?




## My GUIDE offers

- ✓ Over 20,000 degree programmes
- ✓ Immediate eligibility check
- ✓ Direct contact with German universities
- ✓ Checklist feature for your study planning

**Register Now**

→ myguide.de

DAAD
Deutscher Akademischer Austauschdienst
German Academic Exchange Service

SPONSORED BY THE
Federal Ministry of Education and Research

Deutscher Akademischer Austauschdienst
German Academic Exchange Service

# ALMANİYADA TƏHSİL

Valideynlər üçün vacib məlumatlar

5-ci nəşr



**BİZ KİMİK?**

Alman Akademik Mübadilə Xidməti (DAAD) alman ali məktəblərinin birgə qurumudur. Bizim vəzifəmiz dünya üzrə akademik əməkdaşlığı tələbə və alimlərin mübadiləsi vasitəsilə dəstəkləməkdir.

Siz bizim məlumat kitabçalarımızda, → www.daad.de veb səhifəsində və eyni zamanda dünyanın 60-dan artıq ölkəsində yerləşən DAAD-nin Regional Ofislərinin (→ www.daad-georgia.org/az) və İnformasiya Mərkəzlərinin veb səhifələrində Almaniyada təhsil və yaşamaq mövzusunda məlumatlar əldə edə bilərsiniz.



## Əziz analar və atalar,

*Biz, valideyn olaraq övladlarımız üçün yalnız ən yaxşısını istəyirik – təhlükəsizlik, şəxsi və peşəkar inkişaf imkanları, müsbət təcrübələr və ömürlük dostluqlar. Almaniyaya təhsil səfəri övladınız üçün bütün bunları təmin edə bilər.*

*Bizim üçün xoşdur ki, siz övladınızla birgə onun Almaniyada təhsil imkanları haqqında düşünürsünüz. Mənim də övladlarım var və mən də gələcəkdə onların necə təhsil alacaqları barədə tez-tez düşünürəm. Mənim övladlarım hələ çox kiçikdir, amma artıq yaxşı təsəvvür edə bilərəm ki, bu cür planlar məndə nəinki müsbət həyəcan, həm də qeyri-müəyyənlik, ehtiyatlılıq və bəlkə də narahatlıq hissi yarada bilər. Bu məlumat kitabçası sizə açıq qalan suallarınıza cavab tapmaqda yardımçı olacaq. Kitabça bütün dünyada valideynlər tərəfindən ən tez-tez verilən ümumi suallara cavablar təklif edir.*

*Təhsil ölkəsi kimi Almaniyanın təklif edəcəyi çox şey var. Universitetlərimiz təhsilin yüksək keyfiyyətinə görə dünyada böyük nüfuza malikdir, təhsilin sonunda əldə olunan diplomlar isə beynəlxalq aləmdə tanınır. Bu, və bir çox başqa səbəbə görə Almaniya tələbələr arasında ən populyar beynəlxalq təhsil ölkələrindən biridir. Almaniyada hazırda 411 000-dən artıq xarici tələbə təhsil alır və tədqiqat aparır. Biz universitetlərimizin ildən-ilə beynəlmiləlləşməsini görməkdən məmnunuq.*

*Övladınız Almaniyada təhsil almaq qərarına gəlsə, biz çox şad olarıq.*

*Sizi əmin edə bilərik - bu əla seçimdir!*



**Dr. Kai Ziqs**
Alman Akademik Mübadilə Xidmətinin (DAAD) baş katibi



# Mündəricat


| | |
|---|---|
| 6 | Xaricdə təhsil sizə nə verir? |
| 9 | Almaniyada təhsilin üstünlükləri nədir? |
| 10 | Övladım alman dilini hansı səviyyədə bilməlidir? |
| 13 | Almaniyada təhsilə hazırlıq kursları varmı? |
| 14 | Övladım üçün hansı ali məktəb uyğundur? |
| 17 | Övladım hansı ixtisası seçməlidir? |
| 18 | Təhsil üçün nə müddətə getmək məqsədyönlüdür? |
| 21 | Almaniyada təhsil almaq neçəyə başa gəlir? |
| 22 | Təqaüd və ya başqa maliyyə dəstəyi mövcuddurmu? |
| 24 | Övladıma hansı sənədlər lazımdır? |
| 25 | Almaniya təhlükəsizdirmi? |
| 28 | Tibbi təminat necədir? |
| 30 | Övladımın qayğısına kim qalacaq? |
| 32 | Övladım harada yaşayacaq? |
| 33 | Almaniya səyahət ölkəsi kimi maraqlıdırmı? |
| 34 | Əlavə məlumatları haradan ala bilərəm? |
| 36 | Almaniyadakı ali məktəblər |

# Xaricdə təhsil sizə nə verir?

Başqa, yad bir ölkədə yaşamaq insanın həyata baxışını dəyişir, **yeni perspektivlər** açır və insanı **düşünməyə** vadar edir.

## XARİCİ ÖLKƏDƏ YAŞAMAQ ŞƏXSİYYƏTİ ZƏNGİNLƏŞDİRİR VƏ ONUN FORMALAŞMASINDA DƏRİN İZ BURAXIR.

Hər bir yeni mədəniyyətlə tanışlıq, hətta bu mədəniyyət ilk baxışda hec də yad görünməsə belə, insanın **dünyagörüşünü artırır**.

Xaricdə təhsil, yaşadığınız ölkədə aldığınız təhsildən fərqli olaraq övladınızın **sərbəstliyini** daha çox artırır. Bununla yanaşı, xarici dilli ölkədə təhsil övladınıza öz **xarici dil** biliklərini artırmağa yardım edir. Və nəhayət, xaricdə oxuyarkən asanlıqla əldə edilmiş **dostluqlar** hər bir insan üçün şəxsi zənginlikdir.

## BEYNƏLXALQ TƏCRÜBƏLƏR İNSANIN KARYERA ŞANSLARINI ARTIRIR.

Xaricdə təhsil və təcrübə kadrları hazırki qloballaşmış dünyada özünəməxsus şəkildə iş həyatına hazırlaşdırır. O, sizin övladınızın **tərcümeyi halında** əhəmiyyətli, müsbət bir məqamdır ki, bu da sonrakı iş axtarışı üçün **əvəzolunmazdır**. Bununla yanaşı, xarici ölkədə təhsil övladınıza **elmi və işguzar əlaqələr** qurmağa yardım edir.

Bu gün xaricdə oxumaq heç də təhsil müddətininin uzanması demək deyil. Çünki Almaniyadakı **təhsil nailiyyətləriniz** əksər hallarda sizin ölkə tərəfindən tanına bilər.

Qısa şəkildə demək olar ki, xaricdə təhsil sizin övladınızın gələcəyinə **dəyərli sərmayədir**.



**Cəmilə İsmayılzadə**

2008-2010-cu illərdə Almaniyanın Katholische Universitaett Eichstaett İnglostad-da Beynəlxalq Münasibətlər ixtisası üzrə magistr təhsili almışdır. Hazırda Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının Beynəlxalq Əlaqələr şöbəsində müdir vəzivəsində çalışır. Paralel olaraq uşaqlar və yeniyetmələr üçün təsis etdiyi Boomerang Book Club mərkəzinin rəhbəridir.

**Almaniyada təhsil mənə bir yandan əsl tələbə həyatı yaşamağa imkan verdi, digər tərəfdən də biliklərimi artırmağa, fərqli düşüncə tərzi və yanaşmalarla tanış olmağa şərait yaratdı.**

*Almaniyada oxuduğum müddətdə Avropa İttifaqı, Üçüncü Dünya ölkələri, hətta öz regionumuz haqqında belə yeni baxış bucağı formalaşdırdım. Eyni zamanda sosiologiya, iqtisadiyyat üzrə praktiki biliklər əldə etdim. Almaniyada olduğum müddətdə Avropa daxilində xeyli səyahət etdim, yay məktəblərində iştirak etdim, fərqli mədəniyyətləri təmsil edən insanlarla tanış oldum ki, bu da mənim şəxsi inkişafımda böyük rol oynadı.*

*Uğur qazanmaq üçün öz bilik və bacarıqlarını düzgün qiymətləndirmək və fayda gətirəcək istiqamətdə düzgün tətbiq etmək lazımdır. Təhsilli insanların daha çox məlumata və biliyə sahib olduğunu nəzərə alsaq, onların dəyərləndirmə bacarıqlarının daha üstün, gələcəyə dair baxışlarının daha dərin olduğu qənaətinə gələ bilərik. Odur ki, uğurlu olmağın tək yolu təhsil olmasa da, təhsilli adamın uğur qazanmaq şansı çoxdur.*





# Almaniyada təhsilin üstünlükləri nədir?

Alman ali məktəblərinin **bütün dünyada böyük nüfuzu var**. Yeniliklər və tərəqqi üçün vacib, beynəlxalq əhəmiyyətli təkan Almaniyadan gəlir.

## ELM VƏ TƏDQİQAT ALMANİYADA YÜKSƏK DƏYƏRLƏNDİRİLİR VƏ ONLARIN QƏDİM ƏNƏNƏSİ VAR.

İlk universitet hələ 1386-cı ildə Heydelberqdə yaranmışdır. Almaniyanın **ali təhsil sektorunda** tələbələr üçün **müxtəlif imkanlar** təqdim olunur. Burada **çoxsaylı təhsil və tədqiqat imkanları** təklif edən fərqli istiqamətlərə malik bir neçə növ universitet mövcuddur. Almaniyada hər kəs öz maraqlarına və ehtiyaclarına uyğun təlim proqramı tapa bilər.

## ÖVLADINIZIN ALMANİYADA UĞURLU TƏHSİLİ ÜÇÜN YAXŞI ŞƏRTLƏR MÖVCUDDUR.

Ali məktəblər və tədqiqat institutları **yaxşı təhciz olunublar**. Onlar **beynəlmiləlləşməyə** böyük əhəmiyyət verirlər və **beynəlxalq mübadiləni** təşviq etmək üçün 50-dən artıq ölkədə 5400-dən çox tərəfdaş institutla əməkdaşlıq edirlər.

Tələbələrin **qayğısına qalınır**, və eyni zamanda gənc alimlər qismində ciddi qəbul olunurlar. Bütün bunlara görə Almaniya **qeyri-ingilisdilli ölkələr arasında xarici tələbələrin ən çox üstünlük verdiyi ölkədir.**

## ONU DA QEYD ETMƏK LAZIMDIR Kİ, ALMAN DİLİNİ ÖYRƏNMƏYƏ DƏYƏR!

**Alman dili dünya** və **elmi dillər** arasında vacib dillərdəndir. İngilis dilini bilmək məcburidir, alman dilini bilmək isə müsbət bir haldır. İngilis dili bilikləri hazırda təbii bir hal kimi qəbul olunur, daha bir xarici dil bilikləri isə qloballaşmış dünyada övladınızın karyera şanslarını artırır.

# Övladım alman dilini hansı səviyyədə bilməlidir?

Başqa bir ölkədə özünü yaxşı hiss etmək üçün insana adətən yaxşı dil bilikləri gərəkdir. Bu hər bir ölkə kimi Almaniyaya da şamil olunur. Əlbəttə ki, övladınızın **Almaniyaya getməzdən əvvəl** alman dili biliklərinə malik olması ideal olardı. Alman dilini Azərbaycanda öyrənmək üçün bir çox imkanlar var: övladınız oxuduğu ali təhsil məktəbinə və ya Azərbaycanda Höte İnstitutunun tərəfdaşı Alman Dili Tədrisi Mərkəzinə müraciət edə bilər. Başqa bir imkan onlayn dil kurslarıdır ki, buna misal olaraq *Deutsche Welle* və ya *Deutsch-Uni Online (DUO)* göstərmək olar.

### ALMAN DİLİNİ ALMANİYANIN ÖZÜNDƏ ÖYRƏNMƏK ÜÇÜN MÜXTƏLİF İMKANLAR MÖVCUDDUR.

Bəzi ali məktəblər **təhsillə yanaşı dil kursları** təklif edirlər. Universitetdən kənarda da alman dilini öyrənmək üçün imkanlar vardır: məsələn Höte İnstitutu, xalq məktəbləri (*Volkshochschule*) və həmçinin özəl dil kurslarını misal göstərmək olar.

### ALMAN ALİ MƏKTƏBLƏRİ XARİCİ TƏLƏBƏLƏRİN ALMANİYAYA GƏLƏRKƏN ƏLA ALMAN DİLİ BİLİKLƏRİ BACARIĞININ OLMASINI TƏLƏB ETMİRLƏR.

Övladınızdan alman ali məktəbində təhsil alması üçün hansı dil biliklərinin tələb olunması seçilmiş ixtisasdan asılıdır:

- **Beynəlxalq** bir **ixtisas** seçmiş şəxslərdən **yaxşı ingilis dili bilikləri** tələb olunur. Hazırda alman ali məktəblərində 1.700-dən çox ingilis dilli bakalavr, master və doktorantura programları var.
- **Alman dilli ixtisas** seçmiş şəxslər müəyyən səviyyədə alman dili biliklərinin olduğunu göstərməlidirlər. Bunun üçün müxtəlif imtahanlar və standartlaşmış testlər mövcuddur. Məsələn: Alman Dili Xarici Dil kimi Testi (qısaldılmış: *TestDaF*).



**Klaudio Kasperl**
Azərbaycan Texniki Universitetində (AzTU) DAAD lektoru kimi çalışır. O, DAAD tərəfindən maliyyələşdirilən 110-dan artıq ölkənin universitetlərində alman dilini tədris edən 470-dən çox müəllimdən biridir.

## Öyrənmə tərəqqisini dəstəkləməkdən və ilk addımların necə uğura apardığını görməkdən həzz alıram.

*Dil bilikləri elmdə və şəxsi karyera planlamasında mühüm rol oynayır. Buna görə də fikrimcə, dili ixtisasınızla əlaqəli şəkildə öyrənməyiniz vacibdir. O zaman öz biliklərinizi müstəqil şəkildə tətbiq etmək daha asan olur. Bir çox tələbələr etdikləri işlə əyləndikdə daha yaxşı öyrənirlər.*

*Etməklə öyrənmək təkcə dil dərslərinə deyil, həm də bütün fənlərə aiddir. Alman universitetlərində “tədqiqata əsaslanan öyrənmə” prinsipi tətbiq edilir. Yəni, siz təhsil müddətində artıq inkişaf və innovasiya layihələrində iştirak edirsiniz və zamanla yaranan suallara öz cavablarınızı tapa bilərsiniz. Çoxları üçün bu, böyük motivasiyadır və akademik uğura və şəxsi inkişafa töhfə verir.*

*Maraqlarınızı və güclü tərəflərinizi bilirsinizsə, o zaman alman universitetlərinin təklif etdiyi çoxsaylı proqramlar arasından sizə uyğun olanı asanlıqla seçə bilərsiniz.*





# Almaniyada təhsilə hazırlıq kursları varmı?

Bəlkə siz övladınızın xaricdəki təhsilin tələblərinə hazır olmadığından ehtiyat edirsiniz?

**BUNA GÖRƏ DƏ ALMAN ALİ MƏKTƏBLƏRİ ALMANİYADA TƏHSİLƏ MƏQSƏDYÖNLÜ HAZIRLAŞMAQ ÜÇÜN BİR SIRA KURSLAR TƏKLİF EDİRLƏR.**

Almaniyada təhsilin tələbləri ilə tanış olmaq istəyənlər əvvəlcə, məsələn, **yay kursunda** iştirak edə bilərlər. Yay kursları ölkə və insanları tanımaq və həmçinin alman ali məktəblərinin həyatı ilə tanış olmaq üçün gözəl imkandır. Bu kurslar yay aylarında (iyun- sentyabr) Almaniya ali məktəblərində təklif olunur. Dil kursları ilə yanaşı tələbələr həmçinin çoxsaylı ixtisaslar üzrə qısa kurslarda da iştirak edə bilərlər (→ www.summerschools.de).

Üstəlik bir çox universitetlərin propedevtika kursları təklif edən öz hazırlıq kollecləri var. Propedevtika kursları universitetlərin **əcnəbilər üçün** təklif etdikləri **hazırlıq proqramlarıdır**. Bu kurslar xarici abituriyentləri dil və ixtisas baxımından Almaniyada təhsilə hazırlayır. Kurslara həmçinin alman təhsil sahəsi və elmi iş texnikaları ilə tanışlıq da daxildir.

**ÖVLADINIZ BİLİK VƏ BACARIQLARINI ÖZÜ YOXLAYA BİLƏR.**

Xarici tələbələr üçün mərkəzi və standartlaşmış koqnitiv vərdişlərinin yoxlanılması testi vasitəsilə (→ www.TestAS.de/en) övladınız ümumi və fənn üzrə biliklərinin Almaniya universitetində müvəffəqiyyətlə təhsil almaq üçün kifayət edib-etmədiyini asanlıqla müəyyənləşdirə bilər.

# Övladım üçün hansı ali məktəb uyğundur?

Almaniyada təhsil almaq qərarına gələn şəxslərin böyük seçim imkanları var. Burada **420-dən çox dövlət tərəfindən tanınmış ali məktəb** mövcuddur. Onlar təkcə Berlin, Hamburq, Münhen və Köln kimi böyük şəhərlərdə deyil, həm də ölkənin 180 orta və kiçik şəhərlərində yerləşirlər (36-ci səhifədə xəritəyə bax).
**Almaniyada 3 ali məktəb növü mövcuddur**:

- Universitetlər/*Universitäten* (elmi təhsil),
- Tətbiqi elmlər universitetləri/*Fachhochschulen* (praktikaya yönəlmiş ali məktəb)
- İncəsənət, film və musiqi ali məktəbləri/*Kunst-, Film- und Musikhochschulen* (incəsənət təhsili)

### ALMANİYADA ƏKSƏR ALİ MƏKTƏBLƏR DÖVLƏT TƏRƏFİNDƏN MALİYYƏLƏŞİR.

Almaniyada tələbələrin 90 faizindən çoxu dövlət universitetlərində oxuyur. Özəl universitetdən fərqli olaraq (onların sayı təqribən 120-dir), dövlət universitetlərində təhsil ödənişsizdir.

### BÜTÜN ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ TƏDRİSİN KEYFİYYƏTİ YÜKSƏKDİR.

Övladınız münasib universitet axtardığı zaman **CHE Universitet Reytinqi** (→ www.universityranking.de) səhifəsindən yararlana bilər. Bundan əlavə, bir çox alman ali məktəbləri və həmçinin DAAD mütəmadi olaraq **beynəlxalq təhsil sərgilərində** təmsil olunurlar. Bu cür sərgilərdə siz onların proqramları və fəaliyyətləri ilə tanış ola bilərsiniz.

Bəzən övladınızın təhsil aldığı ali məktəbin Almaniya ilə **mübadilə proqramı** olur ki, bu proqramlar çərçivəsində Almaniyada təhsil prosesi asanlaşır.



# STUDY AND KICKSTART YOUR CAREER IN GERMANY.

Say HELLO to excellent universities with a wide range of courses and get an internationally renowned degree.

**study-in-germany.de**

Scan me.

#HelloGermany

AN INITIATIVE OF THE
Federal Ministry of Education and Research

Study in Germany
Land of Ideas

# Övladım hansı ixtisası seçməlidir?

İxtisas seçimi övladınızın maraqlarından və gələcək planlardan asılıdır. Almaniyada ixtisaslar və təhsil diplomları üçün imkanlar genişdir.

### ALMAN ALİ MƏKTƏBLƏRİ MARAQLANANLAR ÜÇÜN BÜTÜN SƏVİYYƏLƏRƏ UYĞUN TƏHSİL TƏKLİF EDİR:

- Təhsilə başlayanlar üçün **bakalavr təhsili**,
- Aldığı təhsil çərçivəsində **xarici ölkə** təcrübəsi toplamaq,
- Bakalavr dərəcəsini aldıqdan sonra **magistraturaya** qəbul olmaq,
- **Doktorantura** təhsili.

### ÇOXSAYLI PROQRAMLAR XÜSUSİ MÖVZU VƏ MARAQLARA UYĞUN HAZIRLANIB.

Ümumiyyətlə alman universitetlərində **21.000-ə yaxın ixtisas təklif olunur**. Onların təqribən yarısını magistratura və doktorantura proqramları təşkil edir, **1800-ə** yaxın **proqram** isə **beynəlxalq istiqamətlidir**.

Tam zamanlı dərəcə proqramları ilə yanaşı, bir çox yarı zamanlı təhsil imkanları da mövcuddur. Maraqlı seçim peşə təhsili və ya tərəfdaş şirkətdə iş təcrübəsi ilə birlikdə universitet kursları təklif edən **ikili təhsil proqramlarıdır**.

Övladınızın maraqlarına və akademik kvalifikasiyasına əsaslanaraq, My GUIDE platforması (→ www.myguide.de) Almaniyada təhsil almaq üçün ona **uyğun proqramlar** tapmaqda kömək edəcək. Bununla yanaşı, DAAD-nin Tbilisi Regional Ofisində Azərbaycana cavabdeh olan əməkdaşdan məsləhət ala bilərsiniz.

# Təhsil üçün nə müddətə getmək məqsədyönlüdür?

Almaniyaya təhsil üçün getmək qərarı sizə çox mühüm və ağır görünə bilər. Bəlkə siz övladınızın xaricdə uzunmüddətli yaşamağının düzgün olub-olmadığına əmin deyilsiniz, bəlkə də belə bir səfər övladınızın bu günə qədərki həyat və təhsil planlamasına uyğun gəlmir. Narahat olmayın:

**ALMANİYAYA TƏHSİL SƏFƏRİ HEC DƏ HƏMİŞƏ UZUNMÜDDƏTLİ OLMAMALIDIR.**

Almaniyada **qısa müddətliyinə** qalmaq üçün çoxsaylı imkanlar var ki, bunlar yaşadığınız ölkədə övladınızın təhsilini dəstəkləyir və tərcümeyi-halında müsbət bir cəhəti artırır.

Qısa müddətli təhsil çərçivəsində alman ali məktəbləri tələbələr üçün **dil və ixtisas kursları** təklif edirlər. Daha bir yol **mübadilə proqramlarıdır** ki, bunları bəzən övladınızın oxuduğu ali məktəblər də təklif edirlər. Bu cür proqramlar çox vaxt tələbələrə bir neçə ay Almaniyada təhsil almaq şansı verir. Qısa müddətli təcrübə də bir fürsət ola bilər.

**BAŞQA ALTERNATİV İSƏ ONLAYN TƏLİMDİR.**

Getdikcə daha çox universitet **onlayn kurslar** və hətta tam **onlayn təhsil proqramları** təklif edir. Harada yaşamağınızdan asılı olmayaraq, bu seçim övladınıza alman universitetində (ən azı virtual olaraq) təhsil almağa və dünyanın hər yerindən olan kurs yoldaşları ilə birlikdə tələbə həyatına qərq olmağa imkan verir.



**Zəhra Əmrahova**
2017-ci ildən Azərbaycanda BMTİP-in Peşə Təhsili üzrə koordinatoru vəzifəsində çalışır. 2010-cu ildə Triesdorf-Vaynştefan Universitetində Biznesin Təşkili Üzrə Menecment (MBA) proqramını bitirib. Onun magistr işi Almaniyada ən yüksək bal-1.0 ilə qiymətləndirilib.

## Almaniyada təhsil həyatımda dönüş rolunu oynadı.

*Almaniyada təhsil mənə öz güvəni, həyata baxış bucağımın dəyişməsini, üstündən illərdir keçməsinə baxmayaraq hələ də istifadə etdiyim bilikləri və bacarıqları, alman ailəsində qalaraq onların ailə dəyərlərini və digər Avropa ölkələrinə səyahət imkanları verdi. Çox dəyərli dostlar əldə etdim və bu münasibətlər bu günədək də davam edir.*

*Uğurlu karyerada təhsilin önəmi sonsuz. Çünki təhsil insana azadlıq verir. Bu isə xoşbəxtliyə gedən yoldur. Xaricdə təhsil isə öz güvəni artırır. Çağırışlar çox olsa da, öhdəsindən gəlib təhsilini uğurla bitirib vətənə qayıtmaq və töhfə vermək düşünürəm çox gözəl hissdir. Xüsusən də qızların təhsil alması və ataların onları dəstəkləməsi çox vacibdir.*





# Almaniyada təhsil almaq neçəyə başa gəlir?

Almaniyanın **dövlət universitetlərində** bakalavr və bir çox magistr proqramlarında təhsil ya tamamilə **ödənişsizdir**, ya da **təhsil haqqı çox aşağıdır**. Özəl ali məktəblərdə isə əksinə təhsil haqqı yüksəkdir.

## BÜTÜN TƏLƏBƏLƏR TƏHSİL HAQQINDAN ƏLAVƏ SEMESTR HAQQI DA ÖDƏMƏLİDİRLƏR.

Semestr haqqının məbləği ali məktəbdən asılı olaraq dəyişir, **hər semestr üçün 150 avro - 400 avro** məbləğində nəzərdə tuta bilərsiniz. Adətən semestr haqqına ictimai nəqliyyat vasitələrindən pulsuz istifadə etmək üçün **semestr bileti** də daxildir.

## ALMANİYADA YAŞAM XƏRCLƏRİ TƏQRİBƏN AVROPA İTTİFAQININ YAŞAM XƏRCLƏRİNİN ORTALAMASINA BƏRABƏRDİR.

Ümumilikdə demək olar ki, kiçik şəhərlərdə böyük şəhərlərə nisbətən daha az pul tələb olunur. Almaniyada tələbələrə ayda orta hesabla **934 avro** pul lazımdır.

Əcnəbi tələbələr maliyyə imkanlarının olmasını sübut etməlidirlər. Adətən, övladınızın **ildə 11208 avro** məbləğində vəsaiti olmasını sübut edən sənəd tələb olunur. Bu sənədin hansı formada olmasını Almaniyanın Azərbaycandakı konsulluğundan öyrənə bilərsiniz.

Əcnəbi tələbə kimi Almaniyada yalnız məhdud formada işləməyə icazə verilir. **Part-time (yarım ştat)** bir iş sizin büdcənin imkanlarını artıra bilər, ancaq yalnız part-time işləməklə təhsili maliyyələşdirmək mümkünsüzdür.

# Təqaüd və ya başqa maliyyə dəstəyi mövcuddurmu?

Almaniyada təhsil məqsədi ilə qısa və ya uzunmüddətli qalmaq üçün müxtəlif maliyyə imkanları mövcuddur.

### ƏCNƏBİ TƏLƏBƏLƏR MÜXTƏLİF QURUM VƏ İNSTİTUTLARA TƏQAÜD ÜÇÜN ƏRİZƏ İLƏ MÜRACİƏT EDƏ BİLƏRLƏR.

DAAD-nin regional ofisində və ya ölkənizdəki ali məktəblərdən övladınızın təqaüd alma imkanları barədə məlumat əldə edə bilərsiniz. Təkliflər olduqca müxtəlifdir: bakalavr tələbələri üçün dil kursları, bütün ixtisas sahələri üzrə təhsil almış məzunlar üçün magistr təqaüdləri, tədqiqatçılar üçün təqaüdlər və s.

DAAD həmçinin **əlilliyi və ya xroniki xəstəlikləri** olan tələbələrin alman universitetlərinə təhsil səfərlərinin maliyyələşdirilməsini dəstəkləyir.

DAAD-nin təqaüd məlumat bazası (→ www.funding-guide.de) internetdə çox rahat bir şəkildə təqaüd axtarmağa imkan verir. Burada siz yalnız DAAD-nin deyil, həmçinin başqa təşkilatların da təqaüd proqramları ilə tanış ola bilərsiniz.

Ancaq bilməlisiniz ki, alman maliyyə təşkilatları əksər hallarda Almaniyada tam bakalavr təhsilini maliyyələşdirmir.

### ALMAN ALİ MƏKTƏBLƏRİ DƏ ÖZ NÖVBƏLƏRİNDƏ MÜXTƏLİF TƏQAÜDLƏR TƏKLİF EDİRLƏR.

Məsələn, 310 alman universiteti beynəlxalq tələbələr üçün də uyğun olan ***Deutschlandstipendium*** təklif edir. Bu səbədən arzuladığınız ali məktəbdən təqaüd imkanları barədə məlumat almağa dəyər.



**Vasif Hüseynov**

2011-2013-cü illərdə Kassel Universitetində Qlobal Siyasi İqtisadiyyat üzrə magistratura, 2014-2018-ci illərdə isə Göttingen Universitetində siyasi elmlər üzrə doktorantura təhsili almışdır. Hal-hazırda Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzində şöbə müdiri vəzifəsində işləyir, eyni zamanda Xəzər və ADA Universitetlərində akademik fəaliyyətini davam etdirir.

## Təhsil, fundamental biliklərlə yanaşı, konstruktiv tənqid, analitika, problem-çözmə kimi mühim bacarıqlar da aşılayır ki, bu da uğurlu karyera üçün çox vacibdir.

*Almaniyada təhsil mənə siyasi elmlər üzrə biliklərimi dərinləşdirmək və fəlsəfə doktoru elmi dərəcəsi almaq imkanı yaratdı. Bu imkanı mən ilk dəfə 2011-ci ildə Kassel Universitetində Qlobal Siyasi İqtisadiyyat üzrə magistratura dərəcəsində oxumaq üçün əldə etdim. Azərbaycanda Dövlət İdarəçilik Akademiyasında Beynəlxalq Münasibətlər üzrə bakalavr dərəcəsində təhsilimi başa vurduqdan sonra, DAAD-ın təqaüdünü qazanıb, Kassel Universitetində təhsilimi davam etdirdim. Bu dövrdə mən akademik tənqid, tədqiqat metodologiyaları, iqtisadi modellər və nəzəriyyələr və s. haqqında mühüm biliklər əldə etdim. Bu biliklər mənə 2014-cü ildə yenidən DAAD təqaüdünü qazanmağa və Göttingen Universitetində siyasi elmlər üzrə doktorantura təhsili almağa şərait yaratdı. 2018-ci ildə fəlsəfə doktoru elmi dərəcəsini əldə etdikdən sonra Beynəlxalq Parlament Təqaüdü proqramı ilə Almaniya Parlamentində 5 ay iş təcrübəsi keçdikdən sonra vətənə qayıtdım.*

*Praktiki biliklər və sosial əlaqələr ilə yanaşı təhsilin uğurlu karyerada önəmi çox yüksəkdir və başqa vasitələrlə əvəz oluna bilməz. Xüsusilə, iqtisadiyyat və tibb kimi sahələrdə kifayət qədər təhsil əldə etmədən uğurlu mütəxəssis kimi formalaşmaq müasir dövrdə demək olar ki, mümkün deyil.*

# Övladıma hansı sənədlər lazımdır?

Azərbaycan vətəndaşları Almaniyaya getməzdən əvvəl **viza** üçün ərizə ilə müraciət etməlidirlər.

Bakıda Almaniya səfirliyindən vizanın şərtləri haqqında və əlavə məlumatlar əldə edə bilərsiniz. Burada sizin vizaya müraciət ilə bağlı bütün suallarınız cavablandırılacaq.

Almaniya səfirliyinin veb səhifəsində (→ www.baku.diplo.de) də siz ətraflı məlumat əldə edə bilərsiniz. Səfirliyin viza şöbəsində qəbul vaxtının təyin olunması da veb səhifə vasitəsilə həyata keçirilir. Viza üçün səfirliyə vaxtında müraciət etməyi unutmayın.

# Almaniya təhlükəsizdirmi?

Almaniya **qonaqpərvər** və **kosmopolit** bir ölkədir. Burada müxtəlif millətlərin nümayəndələri dinc şəraitdə birlikdə yaşayırlar – əhalinin 16 faizindən çoxu immiqrant mənşəlidir.

## DEMOKRATİYA AZADLIQ, HÖRMƏT VƏ TOLERANTLIQ PRİNSİPLƏRİ ÜZƏRİNDƏ QURULUB.

Cəmiyyətin bütün sahələrində, xüsusən də alman universitetlərində **müxtəliflik** və **bərabərlik** mühüm rol oynayır. Almaniyada **iqlimin qorunması** və **davamlılıq** cəmiyyəti maraqlandıran əsas mövzulardandır.

## ALMANİYA BEYNƏLXALQ MÜQAYİSƏDƏ ÇOX TƏHLÜKƏSİZDİR.

Cinəyatkarlıqla bağlı narahat olmaq üçün heç bir əsas yoxdur. Burada təhlükəsizlik tədbirləri olmadan istər böyük şəhərlərdə, istərsə də kəndlərdə gecə-gündüz rahat gəzə bilərsiniz.

## POLİS ETİBARLIDIR VƏ HƏR ZAMAN KÖMƏK EDİR.

Almaniyada istənilən telefondan polisə 110 nömrəsi vasitəsilə pulsuz zəng etmək olar.

Demək olar ki, dünyanın hər bir ölkəsi Almaniyada öz **səfirlik** və ya **konsulluğu** ilə təmsil olunmuşdur. Probleminiz olarsa, **öz ölkənizin nümayəndəsi** ilə hər zaman əlaqə saxlaya bilərsiniz. Bununla yanaşı, övladınız şəxsi təhlükəsizliyi ilə bağlı bütün sualları ilə ali məktəblərin beynəlxalq şöbəsinə müraciət edə bilər.



**Zəhra Alıyeva**
Alman Dili Tədrisi Mərkəzin rəhbəridir. 2002-ci ildə Münxen şəhərinin Lüdviq Maksimilan Universitetinin Fonetika İnstitutunda tədqiqat aparmışdır. Hal-hazırda Zəhra Alıyevanın qızı Almaniyanın Nürnberq şəhərində bakalavr təhsili alır.

**Almaniyada tədqiqat aparmağımla yanaşı, alman dilinin inkişafı, Almaniyanın adət-ənənələri, təhsil sistemi ilə yaxından tanış olmağım bu gün gənclərimizə yardımçı olmağımda böyük rol oynayır.**

*Azərbaycan üçün perspektivli gənclərin yetişməsi əsas məqsədlərdən birinə çevrildi. Dünyaya baxışın və intellektual səviyyənin inkişafı üçün Azərbaycanla bərabər xaricdə təhsil almaq da vacibdir. Azərbaycanın Avropaya inteqrasiya etdiyi bir dövrdə, təhsildə və digər sahələrdə Avropa sisteminin tətbiqi gənclərin xaricdə təhsil alması ehtiyacını yaratdı.*

*Almaniyada təhsil almaq hər bir gənc üçün arzu olunandır, çünki Almaniya Avropanın ən önəmli ölkələrindən biri olmaqla yanaşı, güclü təhsil mərkəzi sayılır və "İdeyalar ölkəsi" kimi tanınır.*

*Xaricdə təhsil almaq istəyi həm mənəvi, həm intellektual hazırlıq, əzmkarlıq və səbr tələb edir. Bunun, məqsədə çatmaq üçün daha çətin yol olduğunu hamımız bilirik. Lakin bu yolu başa vuran bəhrəsini də görür. Uğurlu karyera qurmaq üçün təhsilin, təkmilləşmənin rolu danılmazdır. Almanların gözəl misalı var "Öyrənməyin sonu olmur" və insan gərək nailiyyətləri ilə kifayətlənməsin. Baxmayaraq ki, 2002-ci ildən bəri müxtəlif qrant və təqaüdlər almışam, DAAD-nin yaratdığı imkanı bütün nailiyyətlərimin ilk pilləsi kimi dəyərləndirirəm və bunun üçün DAAD-yə minnətdaram.*



**Mehri Alıyeva**
Zəhra Alıyevanın qızıdır. Almaniyanın Nürnberq şəhərində sənaye mühəndisliyi və idarə olunması ixtisası üzrə təhsil alır.

## Almaniya müxtəlifliyə və mənşəyindən asılı olmayaraq hər kəsə açıq olan və bununla da hamı üçün evə çevrilən bir ölkədir.

*DAAD təqaüdü ilə yay dil kursuna qatıldıqdan sonra Almaniyada təhsilimi davam etdirmək qərarına gəldim. Yay kursları alman universitet həyatı ilə tanış olmaq üçün əla fürsətdir və ona görə Almaniyada təhsilin tələblərini öyrənmək istəyənlərə bu kurslara müraciət etmələrini tövsiyə edərdim.*

*Adət-ənənələrinin möhkəm saxlanılması ilə digər əyalətlərdən fərqlənən Bavariya əyalətinin böyük sənaye şəhərlərindən biri olan Nürnberq şəhəri, zənnimcə, bir tələbə üçün ən gözəl seçimlərdən biridir. Almaniyada təhsil almağın əsas üstünlüyü digər xarici ölkələrdən fərqli olaraq buradakı yüksək keyfiyyətli təhsil sisteminin demək olar ki ödənişsiz olmağıdır. Bundan əlavə, təhsil sistemi müxtəlif təhsil proqramları üçün sərbəst yol təklif edir və bununla da dünyanın hər yerindən çoxlu sayda istedadlı tələbələrə öz arzularını həyata keçirməyə imkan verir. Alınan biliklərin dünya səviyyəli laboratoriya və emalatxanalarda praktiki tətbiqinə xüsusi diqqət yetirilir.*



# Tibbi təminat necədir?

Almaniyada tibbi təminat çox yaxşıdır. Yüksək ixtisaslı həkimlər şəbəkəsi olan Almaniyanın səhiyyə sistemi dünyanın ən yaxşı sistemlərindəndir. Əgər övladınızın Almaniyada tibbi təminata ehtiyacı olarsa, bu zaman arxayın ola bilərsiniz.

## ALMANİYADA TƏHSİL ALMAQ İSTƏYƏN HƏR BİR ŞƏXSİN TİBBİ SIĞORTASI OLMALIDIR.

Buna görə Almaniyaya səfərdən öncə övladınızın **sığortası** olub-olmadığını araşdırmanız gərəkdir. Ola bilər ki, övladınızın qaldığı ölkədə malik olduğu sığortası həmçinin Almaniyada da keçərli olsun. Belə ki, Avropa tibbi sığorta kartı olan şəxs həmçinin Almaniyada sığortalı hesab olunur.

Əgər qaldığınız ölkədən olan sığorta tanınmasa bu zaman övladınız Almaniyada sığortalanmalıdır. Dövlət tibbi sığortasının aylıq haqqı hər ay **təxminən 100 avrodur**. Beynəlxalq şöbə övladınızın sığorta ilə bağlı suallarını cavablandıracaq və eyni zamanda məsləhətlər verəcək.

## ALMANİYADA SIĞORTALI İNSANLAR ÜÇÜN LAZIMİ XİDMƏTLƏR PULSUZDUR.

**Təcili hallar** üçün xəstəxanaların təcili yardım xidməti mövcuddur. **112** nömrəsinə pulsuz telefon zəngi xidmətilə siz gecə və gün ərzində təcili yardım maşını çağıra bilərsiniz.

Bilmək lazımdır ki, Almaniyada dərmanlar yalnız **apteklərdə** satılır. Bəzi ölkələrdə reseptsiz ala biləcəyiniz dərmanları (məsələn antibiotik preparatlar) burada mütləq həkim yazmalıdır.



# Övladımın qayğısına kim qalacaq?

Hər bir ali məktəbdə **beynəlxalq şöbə** və ya beynəlxalq ofis mövcuddur ki, onlar əcnəbi tələbələrin qayğısına qalırlar. Beynəlxalq şöbənin əməkdaşları səfərə hazırlaşarkən yaranmış suallarınızı cavabalandıra biləcək şəxslərdir. Siz onlardan müxtəlif ixtisaslar, qəbul qaydaları, təhsilə hazırlıq, dil imtahanları və konkret olaraq təhsilin planlaşdırılması ilə bağlı məlumatlar ala bilərsiziniz.

**ÖVLADINIZ TƏK DEYİL, BÜTÜN TƏŞKİLATİ MƏSƏLƏLƏRDƏ DƏSTƏK ALIR.**

Bir çox ali məktəblərin **himayə proqramları** var. Bu proqramlar çərçivəsində əcnəbi tələbələrə təcrübəli yerli tələbələrdən bir himayədar təyin olunur. O, övladınıza idarələrə gedərkən, gündəlik həyatla bağlı probemlərdə, təhsillə əlaqədar suallarda yardımçı olur.

Həmçinin, **tələbə qurumları** (*Studierendenwerk*) çoxsaylı ali məktəblərdə tələbələrə dəstək olurlar. Onlar əcnəbi tələbələr üçün sığorta, qalmaq və yeməkdən ibarət xidmət paketləri təklif edirlər ki, bununla da onların Almaniya həyatına uyğunlaşmasına yardım etmiş olurlar.

Hər bir ali məktəbdə **tələbə təşkilatları, ali məktəb qrupları** mövcuddur: onlara təhsil və gündəlik həyatla bağlı suallarla müaricət etmək olar. Onlar həmçinin tez-tez təhsilə yeni başlayanlar üçün müxtəlif istiqamətli tədbirlər keçirirlər. Və sonda: ixtisasla bağlı suallarınız olarsa, bu zaman müəllimlər qəbul saatları zamanı sizin ixtiyarınızdadırlar. Qeyd olunanlarla yanaşı, onu da vurğulamq lazımdır ki,

**ALMAN ALİ MƏKTƏRLƏRİNDƏ ÖVLADINIZDAN MÜƏYYƏN QƏDƏR SƏRBƏSTLİK GÖZLƏNİLİR.**

Onlar təhsil prosesinin **məsuliyyətini** daşımaq iqtidarında olmalıdırlar. Bir sözlə: çoxsaylı kömək təklifləri mövcuddur, yalnız tələbələr onlardan sərbəst istifadə etməlidirlər.



**Ülvi Fətullayev**
2008-2014-cü illərdə Almaniyanın Duisburg-Essen Universitetində bakalavr və magistr təhsili almışdır. Hazırda mexanikə mühəndisliyi üzrə layihə komanda rəhbəri kimi çalışır.

**Almaniyada təhsil həm dünyadakı nüfuzu, həm də əyani olaraq mənə qatdığı dəyərlər baxımdan iş həyatında uğur əldə etməyim üçün böyük əhəmiyyət kəsb edir.**

*Azərbaycan orta məktəbi təhsilini bitirmək ərəfəsində, 2007-ci ildə Almaniyada bakalavr təhsili almaq imkanı qazandım. Aachen Tətbiqi Elmlər Universitetində universitetə qədər hazırlıq kursunu başa vurduqdan sonra, Duisburg-Essen Universitetində mexanika mühəndisliyi üzrə bakalavr və magistr təhsilləri əldə etdim.*

*Daha çox gənc yaşlarımda təhsilimi Almaniyada davam etdirmək imkanı keyfiyyətli təhsildən əlavə, dünyaya və həyata baxış bucağımın formalaşmasında, nümunəvi qərb dəyərlərini mənimsəyərək həyat tərzimə çevirməyimdə böyük rol oynadı. Hal-hazırda SOCAR-KBR şirkətində ölkənin aparıcı neft-qaz layihələrində mexanika mühəndisliyi üzrə komanda rəhbəri vəzifəsində işləyirəm. Eyni zamanda uzun müddət, Bakı Mühəndislik Universitetində akademik fəaliyyətlə məşğul olmuşam.*



# Övladım harada yaşayacaq?

Almaniyada tələbələr ya tələbə yataqxanasında, ya da şəxsi evlərdə qalırlar.

**DİGƏR ÖLKƏLƏRDƏN FƏRQLİ OLARAQ ALMAN ALİ MƏKTƏBLƏRİNİN TƏLƏBƏLƏRİ YAŞAYIŞ YERİ İLƏ AVTOMATİK TƏMİN OLUNMURLAR.**

Hər bir universitet şəhərində **tələbə yataqxanaları** mövcuddur. Yataqxana otaqları ucuz qalma üçün ən yaxşı imkandır. Ancaq yataqxanada yer almaq üçün mümkün qədər tez müraciət etmək gərəkdir. DAAD-nin → www.daad.de/accommodationfinder bazasında siz əlavə məlumat əldə edə bilərsiniz.

Başqa alternativ isə **şəxsi evlərdir**. Təkliflər çox rəngarəngdir. Mənzil bazarında boş otaqdan tutmuş mebelli evə qədər müxtəlif təkliflər var.

**TƏLƏBƏLƏR DAHA ÇOX YATAQXANA TİPLİ MƏNZİLLƏRƏ ÜSTÜNLÜK VERİRLƏR.**

Bu zaman bir neçə tələbə toplanaraq bir mənzil kirayə edir, hər bir tələbənin otağı var, ancaq mətbəx və vanna otağı ümumidir. Bu alternativin (***WG-Wohngemeinschaft***) üstünlüyü onun nisbətən ucuz olmasındadır. Həm də yeni insanlarla daha tez tanış olmaq və eyni zamanda alman dilini öyrənmək üçün bu gözəl bir imkandır.

Mənzil axtarışı üçün lazımi məlumatları siz ali məktəblərin beynəlxalq şöbəsindən ala bilərsiniz.

# Almaniya səyahət ölkəsi kimi maraqlıdırmı?

Siz övladınıza Almaniyada baş çəkmək istəyirsiniz? Bu yaxşı fikirdir, çünki Almaniya səyahət ölkəsi kimi çox maraqlıdır.

### ALMANİYA MƏNZƏRƏLƏRİ ÇOX MÜXTƏLİF VƏ CƏLBEDİCİDİR.

Burada **Şimal və Baltik dənizləri** boyunca gözəl, qumlu çimərliklər və adalar yerləşir. Alman romantik şairlərinin çox sevdiyi dağlardan axan çay vadilərini sıx qarışıq meşələr və orta əsrlər qalaları əhatə edir. Cənubda isə **Alp** dağları aydın dağ göllərində əks olunaraq ucalır.

### ALMANİYA MEMARLIQ BAXIMINDAN DA MARAQLIDIR.

Yalnız Berlin, Hamburg və Münxen kimi böyük şəhərlər maraqlı deyil. Hər bir kiçik və ya böyük şəhərin tədbirlər təqvimi **müxtəlif mədəni proqramlarla doludur**: sərgilər, konsertlər, bayram tədbirləri, ekskursiyalar, festivallar, idman tədbirləri və s.

### BÜTÜN İL BOYU ALMANİYADA TAMAŞAÇILARDA GÖZƏL TƏƏSSÜRATLAR YARADAN REGİONAL BAYRAMLAR QEYD OLUNUR.

Məsələn Rhein karnavalı, Pfalzda şərab bayramı və ya Münxendə oktyabr bayramı.

Almaniya geniş çeşiddə **kulinariya ləzzətləri** təklif edir - ənənəvi regional yeməklərdən tutmuş müxtəlif etnik mətbəxə, ən dəbli Mişlin ulduzlu restoranların təqdim etdiyi yeniliklərə qədər.

### ALMANİYA ÇOX YAXŞI NƏQLİYYAT ŞƏBƏKƏSİNƏ MALİKDİR.

Avtomobil, qatar və ya təyyarə ilə siz rahat səyahət edə bilərsiniz. Bununla yanaşı, Almaniya **Avropanın mərkəzində** yerləşir və bu baxımdan başqa Avropa ölkələrinə səyahət üçün ideal çıxış nöqtəsidir. Özünüz buna əmin olun!

# Əlavə məlumatları haradan ala bilərəm?

Almaniyada təhsillə bağlı məsləhət və materialları siz bu ünvanlardan və ya şəxslərdən ala bilərsiniz (buradan həmçinin DAAD-nin digər məlumat xarakterli nəşrlərini əldə edə bilərsiniz):

- DAAD Tbilisi Regional Ofisindən (→ www.daad-georgia.org/az/);
- DAAD tərəfindən xarici ali məktəblərə göndərilmiş lektor və dosentlərdən;
- Alman səfirlik və ya konsulluğundan;
- DAAD-nin Bonn Mərkəzindən (→ www.daad.de/contactform).

**Almaniyada təhsil üçün:**
→ www.daad.de/deutschland
→ www.daad.de/publications-germany
→ www.study-in-germany.de

**Təhsil proqramları təklifləri:**
→ www.myguide.de
→ www.daad.de/international-programmes
→ www.daad.de/study-programmes
→ www.universityranking.de
→ www.studienwahl.de

**Viza məsələləri üçün:**
→ www.auswaertiges-amt.de

**Təqaüdlər haqqında:**
→ www.funding-guide.de
→ www.deutschlandstipendium.de

**Alman dili öyrənmək üçün:**
→ www.summerschools.de
→ www.goethe.de
→ www.deutsch-uni.com
→ www.dw.de
→ www.testdaf.de

**Beynəlxalq tələbələr üçün test:**
→ www.testas.de/en

**Qarşıdan gələn universitet sərgilərinın tarixləri:**
→ www.study-in-germany.de/events

**Onlayn kurslar və dərəcə proqramları:**
→ www.daad.de/international-programmes (“Online formats only”)
→ www.hochschulkompass.de (“Distance learning”)

**Yerləşdirmə:**
→ www.daad.de/accommodationfinder

# Almaniyada ali məktəblər



## Buraxılış məlumatları

**Nəşr:**
Alman Akademik Mübadilə Xidməti (DAAD)
Kennedyallee 50
D-53175 Bonn

Qualitätsmanagement
zertifiziert nach
DIN EN ISO 9001

Alman Akademik Mübadilə Xidməti (DAAD) alman ali məktəblərinin birgə qurumudur. Təşkilat institusional olaraq Almaniya Xarici İşlər Nazirliyi tərəfindən maliyyələşdirilir.

Referat K23 - Almaniyada təhsil haqqında məlumat

**Layihənin koordinatorları:**
Kerstin Nolden, Angela Faust, DAAD

**Redaktor:**
Dr. Dagmar Giersberg, Bonn

**Tərtibat:**
DITHO Design GmbH, Köln

**Tərcümə:**
Sevər Qarayeva, Tbilisi

**Mətbəə:**
Ltd. CEZANNE
Didi Diğomi,
Archil Mefe küç. 1
0132 Tbilisi

Tiraj: İyun 2023 – 300 (5-ci nəşr)
© DAAD

**Şəkillər:**
Sebastian Legge/DAAD (səh. 3), Shutterstock (səh. 4), Stephan Röhl (səh. 7), franz12/Shutterstock (səh. 8), Flamingo Images/Shutterstock (səh. 12), Jan von Allwoerden/DAAD (səh. 15), Jacob Lund/Shutterstock (səh. 20), Fərxad Sultanov (səh. 23), Peter Becher Fotografie (səh. 27), Stock-Asso/Shutterstock (səh. 29), digər şəkillər: şəxsi (səh. 11, 19, 26, 31)

Bu nəşr Almaniya Xarici İşlər Nazirliyinin maliyyə köməyi ilə çap edilmişdir.

Federal Foreign Office

DAAD.de
DAAD_Germany
DAAD.Worldwide
daad_worldwide
DAADWorldwide
school/daad-worldwide